**BİKƏXANIM QURBANOVA**
**Bakı Avrasiya Universiteti.**
**qurbanovabike1@gmail.com**

# DIL İLƏ CƏMIYYƏT ARASINDA ƏLAQƏ VƏ SOSIOLINQVISTIKANIN YARANMASI

**Ключевые слова:**язык,общество,человек,общение,языковой знак, социолингвистика, Сосюр
**Key words**:language,society,human,communication,language sign,sosiolinguistics,Saussure.
Açar sözlər:dil,cəmiyyət,insan,əlaqə,dil işarəsi,Sosiolinqvistika,Sössür.

Dil cəmiyyət həyatına xidmət edən ictimai hadisədir, cəmiyyətdən kənarda fəaliyyət göstərə və inkişaf edə bilməzdi. Dilin yaranması və inkişafı ictimai şüurun və insan təfəkkürünün inkişafı ilə üzvi şəkildə əlaqədardır (3,səh. 139). Cəmiyyət və dilin inkişafı arasındakı qarşılıqlı münasibətlərin təhlilində, dilin yaranması və inkişafında cəmiyyətin xüsusi rolu var. Dil yaranandan ictimai məhsuldur və insanlar mövcud olduqca ictimai məhsul olaraq qalacaqdır. Dil cəmiyyətin ən mühüm atributlarından biridir. Dilin mövcudluğu cəmiyyətin mövcudluğu,yaşaması və inkişafının zəruri şərtlərindən biridir.Dili cəmiyyət yaradır və onun kommunikativ vasitə kimi inkişafına həmişə nəzarət edir.Dil və cəmiyyət arasında müəyyən əlaqənin,münasibətin olması fikri,çox güman ki,insanların şüurunda qədim zamanlardan özünə möhkəm yer tutmuşdur. Dil qarşılıqlı ünsiyyət vasitəsidir və dilin köməyi ilə insanlar özlərini qarşılıqlı şəkildə ifadə edə bilirlər. Bununla bağlı bir sıra alimlər fikirlər irəli sürmüşlər.Məşhur alman filosofu Qotfild Vilhelm Leybnis dili insan ruhunun ən yaxşı güzgüsü adlandırırdı.Böyük alman dilçisi,diplomatı və filosofu Vilhem fon Humboldta görə dil insanlar arasında ünsiyyət yaratmaq tələbatından meydana çıxmışdır.A.Meye,J.Bandires,K.Fossler,F.de Sössür kimi dilçilər də həmin fikirlərlə razılaşmış,əsərlərində də qeyd etmişdir.Əslində dilin yaranması ilə bağlı nəzəriyyələr sadəcə ictimai razılaşma nəzəriyyəsi deyil.Dilin yaranması ilə bağlı nəzəriyyələr aşağıdakılardır:

*1) Dilin yaranması ilə bağlı teoloji nəzəriyyə*-Teologiya termini yunan mənşəlidir. Mənası ilahiyyat deməkdir. Bu nəzəriyyəni, eyni zamanda, dini nəzəriyyə də adlandırmaq olar. Orta əsrlərdə dilin yaranması barədəki bütün fikir və mülahizələr ilahiyyat alimlərinin dini kitablar əsasındakı mülahizələri üzrə cəmlənmişdir. Həmin mülahizələrə fikir aydınlığı gətirsək belə çıxır ki, insan yer üzünə Allah dərgahındakı qeyri-müəyyən bir məkandan (cənnətdən) gəlmişdir(4,səh.14). Dini mənbələrdə

göstərildiyinə görə Allah Adəmi yaratdıqdan sonra şeylərin adlarını da ona öyrətmişdir.Allah Adəmi yaratmamışdan əvvəl təbiəti yaratmış və orada insan üçün lazım olan vasitələri də yetişdirmişdir. Allah Adəmə elə bir şüur vermişdir ki, o şüur idraka keçib təfəkkürə çevrilsin. Təfəkkür isə insanda ona xidmət edir ki, dilin formalaşmasına və müstəqil yaradıcılığa təkan versin. İlk insan ancaq təbiətdən müəyyən vacib sözləri öyrənə bilmişdir.

*2) Dilin yaranması ilə bağlı səs təqlidi nəzəriyyəsi* Səs təqlidi nəzəriyyəsi dilin yaranması ilə bağlı ilk nəzəriyyələrdən biridir.Yunanıstanda yaranan və V-IV əsrlərə aid olan bu nəzəriyyəni stoiklər irəli sürmüşlər(2,səh.214).Səs təqlidi nəzəriyyəsinə görə dil ilk insanların eşitdikləri sözləri təqlid etməsi nəticəsində yaranmışdır.Bu nəzəriyyəyə görə insan gördüyü şeyin təsvirini beynində canlandırıb,səsini təqlid etmişdir.Dildəki "böyürtü","şırıltı","şappıltı" kimi sözlər insan üçün zəruri məfhumları ifadə etmir.Səs təqlidi nəzəriyyəsinin ayrı-ayrı vaxtlarda çoxlu tərəfdarları var idi.XVIII əsrdə Leybnits bu nəzəriyyəni daha geniş şəkildə tədqiq etmişdir.Hal-hazırda dünyanın əksər və dilçiləri və alimləri səs təqlidi nəzəriyyəsini əsas nəzəriyyə hesab edirlər. *3)Dilin yaranması ilə bağlı nidalar nəzəriyyəsi*. Yunanıstanda meydana gələn nidalar nəzəriyyəsinin banisi epikürçü-filosoflardır(2,səh.218).Nidalar nəzəriyyəsinə görə dil ilk insanların şərait və vəziyyətindən asılı olaraq,ağrı və qorxu,sevinc və təəccüb nəticəsində çıxardığı qeyri-iradi emosional səslərdən əmələ gəlmişdir. Bu nəzəriyyəyə əsasən ilk insanlar öz əhval-ruhiyyələrini,hisslərini başqalarına bildirmək üçün səslər çıxarmışlar və həmin səslərə müxtəlif mənalar vermişlər.Bu mənalardan yeni-yeni sözlər əmələ gəlmişdir və dil yaranmışdır. Nidalar nəzəriyyəsi XVIII əsrdə xüsusi olaraq diqqəti cəlb etmişdir. Jan Jak Russo,Kudryavski bu nəzəriyyəni ən çox müdafiə edənlərdən idi.

*4)Dilin yaranması ilə bağlı ictimai razılaşma nəzəriyyəsi*.E.ə V-IV əsrlərdə Yunanıstanda meydana gələn bu nəzəriyyənin məğzi "İctimai razılaşma" anlayışı təşkil edir.Bu nəzəriyyənin ikinci adı tesey nəzəriyyəsi adlanır.Bu nəzəriyyəyə görə ilk insanlar hər hansı bir məfhuma ad verərkən müəyyən razılığa gəlirdilər. XVIII əsrdə fransız mütəfəkkirləri dilin ictimai razılaşma əsasında yarandığının tərəfdarı olub,onlara görə "dil şüurlu kəşf və ictimai razılaşma"əsasında meydana gəlmişdir(2,səh.222).

*5)Dilin yaranması ilə bağlı jestlər nəzəriyyəsi.*Jestlər nəzəriyyəsinə görə ilk insanlar jestlərlə ünsiyyət qurmuşlar.V.Vundt bu nəzəriyyənin ən böyük tərəfdarlarından biri olmuşdur,onun fikrincə həm jest,həm də səs hərəkəti ifadə etmişdir.İngilis alimi Pencet səsli dilin birinci olmasını inkar edərək,ilk insanların əl-qollarını oynatmaqla və bununla yanaşı dil və dodaqlarını hərəkət etdirmək vasitəsilə danışdıqlarını göstərmişdir. Amerikalı Trondayk da ilk insanların əl hərəkətindən başqa danışıq üzvlərini

oynatmaqla fikir ifadə etdiklərini söyləmişdir.Ümumiyyətlə , jestlərin və mimikaların olmadığını demək qeyri-mümkündür.Hal-hazırda danışıqda onlar geniş şəkildə istifadə olunur.Lakin jestlər bəzi nəzəriyyəçilərin təsəvvür etdiyi kimi dildə əsas rola malik deyil.Natiqlərin,səhnə ustalarının nitqində jestlərin "köməkçi emosional əhəmiyyəti" vardır.

*6)Dilin yaranması ilə bağlı əmək hıçqırıqları nəzəriyyəsi.*Bu nəzəriyyə XIX əsrdə meydana gəlmişdir.Bu nəzəriyyənin banisi L.Nuare dilin əmələ gəlməsini əməklə əlaqələndirmişdir.Nuarenin fikrincə dil insanların əmək prosesində instiktiv və reflektiv hıçqırıqlar əsasında yaranmışdır. (2,səh.224).Nuarenin fikrincə əməklə dil paralel amillərdir.Sosiolinqvistikanın bir elm kimi formalaşması Fredinand de Sössürün adıyla bağlıdır.Onun dilçilik elminə verdiyi töhfələr bütün dünyada məşhurdur. Sössür insanın danışıq qabiliyyətini,bacarığını nitq fəaliyyəti adlandırmışdır.(3,səh.362).Nitq fəaliyyəti daxilən dil və nitq deyə iki yerə ayrılır.Nitq fəaliyyəti həm fərdi,həm də sosial mahiyyət daşıyır.Dil və nitq bir-biriylə sıx şəkildə əlaqədardır və bir-birini qarşılıqlı şəkildə şərtləndirir: "nitqin başa düşülməsi və özünün bütün hərəkətlərini icra etməsi üçün dil zəruridir".Tarixən nitq dildən əvvəl meydana gəlmişdir.Sössürün dil və nitq haqqında verdiyi əsas təriflər aşağıdakılardır: 1)Dil ictimai,nitq isə fərdi hadisədir.Hər bir nitq aktı ayrıca bir fərd tərəfindən törədilir,dil isə əvvəlki nəsillərin bizə miras qoyduğu şəkildə qəbul edilir. 2)Dil potensial surətdə hər bir beyində leksik və qrammatik sistem şəklində mövcuddur;bu potensial imkanların həyata keçirilməsi isə nitqdir. F.de Sössür dili işarələr sistemi hesab edirdi.Dil məna və akustik obrazın birləşməsindən ibarət olan işarələr sistemidir.Akustik obraz dedikdə,müəllif səsin material cəhətini deyil,onun əlamətini,insanın hiss üzvləri vasitəsi ilə qavradığı təsəvvürü nəzərdə tutur.(5,səh.367).Sössür dil işarələrini hər hansı bir təsəvvür deyil,insan beynindəki reallıq hesab edirdi.Dil işarələrinə misal olaraq sözü göstərə bilərik,lakin Sössür sözün hissəsinin də dil işarəsi olduğunu qeyd etmişdi.F.de Sössürə görə zaman keçdikcə dil işarəsi dəyişsə də,fərdin iradəsi olmadan öz şəklini dəyişə bilməz.İşarənin dəyişməzliyi özünü onda göstərir ki,insanlar dil işarəsini ənənə şəklində əvvəlki nəsillərdən miras alırlar.(5,səh 369).Dil işarəsinin valentliyi haqqında mühüm fikirləri Sössür belə izah edirdi: "Söz təkcə məna deyil,həmçinin valentlik ifadə edir.Məs: fransız dilində mouton "qoyun","qoyun əti" sözü ,ingilis dilinin "sheep" sözü ilə uyğunluq təşkil edə bilər."Sheep" və "mouton" sözlərinin valentliyi arasındakı fərq onunla əlaqədardır ki,ingiliscə "sheep" sözü ilə yanaşı,fransız dilində olmayan başqa söz də vardır.Bu nümunə ilə Sössür demək istəyir ki,bir dilin leksik sistemindəki mənası həmin sözün digər dilin leksik sistemindəki mənası ilə uyğun gəlməyə bilər.Məna ilə valentlik eyni deyildir.Valentlik mənadan kiçikdir və ona daxildir.

*Xarici və daxili linqvistika.*Sössürün dilçiliyə gətirdiyi yeniliklərdən biri də daxili və xarici linqvistika məsələsidir.Bildiyimiz kimi dil cəmiyyətə xidmət edir və cəmiyyətlə üzvi şəkildə əlaqədardır.Sössür dildən kənarda olan ictimai hadisələri xarici linqvistikada öyrənməyi lazım bilirdi.Xarici linqvistikaya dil və tarix,dil və cəmiyyət,dil və irqi misal göstərmək olar.Daxili linqvistika dilin daxili inkişaf qanunlarını öyrənir.Sosiolinqvistika özü də bir çox qollara ayrılır ki bunlar da aşağıdakılardır: *Ümumi sosiolinqvistika*: Sosiolinqvsitikanın ümumi nəzəriyyəsinin, predmetinin,-metodologiyasının,ontoloji əsaslarının araşdırılıb tədqiq edilməsi vəzifələri aiddir.Sosiolinqvistikanın digər elmlərlə əlaqəsi onunla səciyyələnir ki,bütün insanların fəaliyyəti dildə təzahür edir.Sosiolinqvistika da fərdlə cəmiyyət arasındakı problemi həll etməyə çalışır. *Sinxron sosiolinqvistika:*Sinxron sosiolinqvistikanın diqqət mərkəzində müasir dillərin müxtəlif iqtisadi-siyasi,ictimai-siyasi,mədənişəraitlərdə fəaliyyət göstərməsi,etnolinqvistik,dil situasiyası durur.Sinxron sosiolinqvistikanın məşğul olmalı olduğu problemlər arasında müasir beynəlxalq dillər,gənc yazılı və yazısız dünya dillərinin ictimai funksiyalarının inkişafı yer tutur. *Retrospektiv sosiolinqvistika*:Retrospektiv sosiolinqvistika,problemləri araşdırarkən cəmiyyətin inkişafının məntiqi ilə şərtlənmiş sosial faktorların dillərin fəaliyyəti və inkişafına təsiri ilə-cəmiyyət tərəfindən onlarla olduqca zəif dərəcədə şüurlu təsiri şəraitində iş görür(5,səh 317).Retrospektiv sosiolinqvistikada digər elmlərin metodlarından da istifadə edilə bilər.

*Xüsusi sosiolinqvistika*:Sosiolinqvistikanın bu növü hər hansı bir sahənin sosiolinqvistik problemlərini,dilin tətbiqinin müəyyən dairələri ilə məşğul olur.Kütləvi kommunikasiyanın-dövrü mətbuat,radio,televiziya,kino dilinin sosiolinqvistik problemlərinin işlənib hazırlanmasının sosial əhəmiyyətini qiymətləndirmək çətindir(5,səh 318).Dilin estetik kateqoriya kimi tədqiq edilməsi xüsusi sahə sosiolinqvistikasının vacib məsələlərindən biridir.Hər bir xüsusi sosiolinqvistika dilçilik,sosiologiya və özünün metodik üsullarından biridir. *Tətbiqi sosiolinqvistika*-Tətbiqi sosiolinqvistikanın qarşısında ictimai inkişafın ümumi nəzəriyyəsi,metodoloji konsepsiya,dil-sosial problemlər,dil siyasəti və s. sosiolinqvistik problemlər durur(5,səh319).Orfoqrafiya qaydaları məsələləri,əlifba tərtibi,terminologiya məsələləri,ədəbi dilin normalaşdırılması kimi problemlər məhz tətbiqi sosiolinqvistikada həll edilməlidir.Tətbiqi sosiolinqvistikanı digərlərindən fərqləndirən əsas cəhəti də vardır.Bu cəhət ondan ibarətdir ki,tətbiqi sosiolinqvistika elə məşğul olur ki,onların həlli üçün cəmiyyətin şüurlu hərəkəti vacibdir. *İnterlinqvistika*-Sosiolinqvistikanın sahələri arasında interlinqvistika digərlərində daha sonra yaranmış bir növüdür.Mükəmməl əlifba,qrammatik quruluş,fonemlər sistemi,leksika yaratmaq,qrammatik quruluşdakı problemləri həll edərkən interlinqvistika daha çox struktur

dilçiliyin prinsip və metodlarından istifadə edir.İnterlinqvistikanın əsas vəzifəsi ən mükəmməl köməkçi süni ünsiyyət dilinin yaradılması probleminin işlənib hazırlanmasıdır (5,səh 320).Bu məqsədlə müxtəlif layihələr,süni dillərin fəaliyyət göstərməsi və gələcəkdə yayılması məsələləri,süni dillərin sosial funksiyaları və onun tətbiqi dairələri problemləri müzakirə olunur.İnterlinqvistika bəşəriyyətin gələcək vahid dili problemləri ilə maraqlanır. *Müqayisəli sosiolinqvistika*-Dünya dillərinin ictimai funksional inkişafının müqayisəli təhlili ilə məşğul olur. Sosiolinqvistikanın bu sahəsi maddi və mənəvi mədəniyyətin müxtəlif dillərdə inikası prosesini,habelə dillərin funksional inkişafının bəzi problemlərini öyrənməyə imkan verir(5,səh 321).Sosiolinqvistika bugün dünyada linqvistikanın ən öndə gedən sahələrindən birini təşkil edir(1,səh 262).Sosiolinqvistik problemlərdən biri kimi Azərbaycan dilinin tarixi bəzi təşəbbüslər nəzərə alınmazsa,1930-cu illərdən etibarən sistemli tədqiqat obyektinə çevrildi (1,səh 263).Sovet dövründə Azərbaycan dilinin tədqiqi aşağıdakı mərhələlərdən keçmişdir:1)1930-1950-ci illər, 2)1960-1980-cı illər, 3)1980-ci illərdən sonrakı dövr. 1930-1950-ciillər aşlanğıc, 1960-1980-cı illər isə zəiflik dövrüdür.Müstəqillik dövründən başlayaraq, sosiolinqvistik məsələlərin öyrənilməsi ön plana keçdi,hal-hazırda da bu məsələlərin araşdırılması üçün işlər görülür. Müasir dövrdə bir çox ölkələrdə sosiolinqvistik problemlərin həllinə həsr edilmiş çoxlu monoqrafiya və məqalələr nəşr edilmişdir. Aparılan tədqiqatlardan aşağıdakı nəticələrə gəlmək mümkündür: 1.Dil sosial mahiyyət daşıyan ictimai varlıq olduğuna görə onun yaranması ilə bağlı fərqli nəzəriyyələrin mövcudluğu təbii hal kimi qəbul edilə bilər. 2.Dilin sosial mahiyyətini nümayiş etdirən digər bir məsələ isə ondan ibarətdir ki,dil işarəsi və onun mənası cəmiyyət tərəfindən qəbul edilmədən dəyişə bilməz. 3.Sosiolinqvistika bir-başa cəmiyyətlə bağlı olduğuna görə bütün dünyada hər zaman linqvistika sahələrindən biri kimi qəbul edilmişdir.

## Ədəbiyyat

1. Quliyeva Vəfa "Azərbaycan dilinin sosiolinqvistik tarixinə bir nəzər",AMEA Xəbərləri,Humanitar elmlər seriyası,2016 No1 300 s.
2. Qurbanov Afad "Ümumi dilçilik" (pedaqoji institutlar üçün dərslik),Bakı,"Maarif nəşriyyatı,1977,294 s.
3.Rəcəbli Əbülfəz "Dilçilik tarixi" (ali məktəblərin filologiya fakültələri üçün dərslik) Bakı,"Maarif" nəşriyyatı, 1988,537 s.
4. Yusifov Mübariz "Tipologiya" Bakı, «Elm və təshil», 2017, 184 s.
5.Rəcəbli Əbülfəz "Sosiolinqvistika",Bakı,"Nurlan" 2004,520s.

**К Бикаханум**

**Связь между обществом и социальным исследованием**

**Резюме**

Язык –общественный продукт,связанный с обществом.Теории связанные с созданием языка оказали влияние на формирование языка и общества.Основоположником социолингвистики является Соссюр.По мнению Соссюра,язык- это система объединения акустических и смысловых знаков.Одним из нововведений Соссюра в языкознании является проблема внутренней и внешней лингвистики.Сама социолингвистика тоже подразделяется на виды.

Синхронная социолингвистика-это языковая ситуация и участие разных современных языков в экономических и политических условиях.Интерлингвистика-вид социолингвистики зародившейся после.-Сравнительная социолингвистиказанимается проблемами сравнения развития мировых языков.На сегодняшний день социолингвистика-один из передовых областей в мире.

Язык - это публичное событие, но речь - это отдельное событие. Сомсур думает, что язык - это система знаков. Сомсэр считал, что знаки системы индивидуальны.

**G.Bikakhanum**

**Relationship between society and social investigation**

**Summary**

Language is a public product and is related to society.Theories about language development have influenced the formation of language and society.The founder of sosiolinguistics is the Sossur.Sossur has supposed that language is a system of marks consisting of a combination of meaning and acoustic image.One of the innovations that Sossur brings to linguistics is internal and external linguistics.Sociolinguistics is also divided into different branches.Simultaneous social-modern languages are functioning in a variety of economic and political conditions and language situations.İnterlingue is a later form of sociolinguistics.Comparative sociology is a comparison of the development of world.Sociolinguistics is one of the most prominent areas in the world today.Language is public event,but speech is individual event.Saussure thinking that language is the system of marks.Saussure considered that marks of the system is individual.

**Rəyçi: Mayıl Əsgərov**
**Filologiya elmləri doktoru, profesor**